UOT 94 "16/18"

# "SÜRİX PROTOKOLLARI": BAXIŞLAR VƏ MÖVQELƏR

**İsmayıl Musa**
***Bakı Dövlət Universiteti***
***İsmayıl_Musa@rambler.ru***

*Məqalədə Türkiyə ilə Ermənistan arasında 2009-cu il oktyabrın 10-da Sürixdə imzalanan protokollarla bağlı məsələlər nəzərdən keçirilir. Əsas diqqət bu sənədlərin imzalanmasının səbəblərinin təhlilinə verilir. Məqalədə həmçinin tərəflərin protokolları təsdiqləməməsi səbəbləri də araşdırılır. Protokollar ətrafında gedən kəskin müzakirələr də məqalədə təhlil olunmuşdur. Azərbaycan diplomatiyasının sənədlərlə bağlı mövqeyi də işdə öz əksini tapmışdır.*

**Açar sözlər**: Sürix, protokollar, "ikili standart", "Dağlıq Qarabağ problemi", ərazi iddiaları

Son illərin bir diplomatik aktı, yəni Türkiyə ilə Ermənistan xarici işlər nazirlərinin 2009-cu il oktyabrın 10-da imzaladıqları "Sürix protokolları" beynəlxalq siyasətdə yeni şərait yaratmışdı. Tərəflər ABŞ, Rusiya və Fransa baş diplomatlarının (H.Klinton, S.Lavrov və B.Kuşnerin) iştirakı ilə 2 protokol imzalamışlar: 1.Türkiyə Cümhuriyyəti və Ermənistan Respublikası arasında diplomatik əlaqələrin qurulmasına dair. 2. Ermənistan Respublikası və Türkiyə Cümhuriyyəti arasında münasibətlərin inkişafı.

Üzdən sadə görünən, əslində isə çox mürəkkəb olan və ətrafında müxtəlif diplomatik manevrlər edilə biləcək protokolların əsas məqamları (tezisləri) bunlardır:

- iki ölkə arasında və regionda sülh-təhlükəsizliyin möhkəmləndirilməsinə yardım edəcək etibarlı mühitin yaradılması və qorunması;
- təhdid və güc tətbiqindən çəkinmə;
- münaqişələrin sülh yolu ilə həll olunmasında qətiyyətlilik;
- yaxşı qonşuluq münasibətlərinin qurulması;
- siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafı;
- səbəbindən asılı olmayaraq terrorçuluğun bütün formalarının, zorakılıq və ekstremizmin qınanması, onlara qarşı birgə mübarizə və s.

Protokollara dair çoxtərəfli maraqlar və sənədlərin başlıca məqamları, nəticələri, perspektivləri ilə bağlı xeyli fərqli siyasi-elmi dəyərləndirmələr var.

BMT-nin Nizamnaməsinə, Helsinki “Yekun Aktı”na, “Yeni Avropa üçün Paris Xartiyası”na, “Diplomatik Əlaqələrə dair Vyana konvensiyası”na (1961) istinadən tərtib olunan **protokolları təqdir edən baxış və mövqelərin** başlıca müddəalarından bunlar qeyd oluna bilər:

**1.**Protokolların təsdiqlənməsi əsasında baş verə biləcək Türkiyə-Ermənistan yaxınlaşması Güney Qafqazda həlli müşkülə çevrilən problemlərin çözülməsi prosesində müsbət irəliləyişə təkan olardı. Müəyyən riskləri və yeni imkanlarla bağlılığı da inkar edilə bilməyən bu hal düşündürücü hesab olunur. Türkiyənin bölgədəki yüksək fəallığı və region dövlətləri ilə sıx əməkdaşlığı onun məhəlli güc kimi özünü təsdiq etməsi deməkdir. Türkiyənin güclənməsinin onun strateji tərəfdaşı olan Azərbaycanın maraqlarını təmin etməsi şübhə doğurmur.

**2.**Bu sənədlərin ratifikasiyasının milli kimliyini mifoloji baxış-mövqelər (“Böyük Ermənistan” xülyası, “erməni soyqırımı məsələsi” və s.) təşkil edən ermənilər daxilində parçalanmanı dərinləşdirməsi və qarşıdurmanı gücləndirməsi də ehtimal olunurdu.

**3.**Rəsmi Ankaranın “protokolların təsdiqlənməsi yalnız Ermənistanın tutduğu Azərbaycan torpaqlarını azad etməsindən sonra mümkün ola bilər” tələbi (7) “Dağlıq Qarabağ problemi”ni daha qəti şəkildə beynəlxalq gündəmə daşıyırdı. “Dağlıq Qarabağ məsələsi” elə Türkiyənin də problemidir, tutulan ərazilər bizim də torpaqlarımızdır” kimi yanaşma münaqişənin ədalətli həllində onun söz sahibi olmaq imkanlarını artırırdı.

**4**. ABŞ və Avropa İttifaqı (Aİ) Türkiyənin Ermənistanla yaxınlaşmasına (onların protokollar imzalaması və təsdiqləməsinə) çalışmaqla Rusiyanın daha da zəiflədilməsi və regiondan çıxarılması məqsədini güdür. Bu yolla Ermənistanın tamamilə Qərbin təsiri altına düşməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan torpaqlarının işğaldan qurtarması ehtimal edilir.

**Protokollara dair mənfi yanaşmaların** əsas mülahizə-tezisləri isə aşağıdakılardır:

**1-cisi**, “erməni açılımı”nın Azərbaycanın əleyhinə olmadığına dair iddialar əsassızdır. Ermənistanla sərhədlərin açılmasına razılıq və “Qarabağ şərti”ndən geri çəkilmə Türkiyə-Azərbaycan strateji tərəfdaşlığına ciddi zərbə ola bilər (1, 383). Qardaş dövlətin 9-cu prezidenti S.Dəmirəlin bir açıqlama-xatırlatmasında deyilir ki, “SSRİ-nin dağılmasından sonra Türkiyə Ermənistanın müstəqilliyini tanımışdı. Bir müddətdən sonra Azərbaycan torpaqlarının müəyyən hissəsini tutduğundan onunla sərhədlər bağlandı”. “Sərhədlərin bağlanmasının səbəbi aradan qalxdımı?” sualından çıxış etməyi məsləhət bilən S.Dəmirəl həmçinin “protokollarla siyasi manevrin, yəni “sənədlər imzalanır, ancaq təsdiqlənmir və sərhədlər yenə də bağlı qalır” sxemi-taktikasının təhlükəli olduğunu da nəzərə almağı vacib sayır. Belə ki, hazırkı iqtidarın sərhədlərin açılması ilə bağlı beynəlxalq çevrələrə və bəzi dövlətlərə verdiyi vədin reallaşmamasının Türkiyəni ciddi problemlərlə üzləşdirməsi də istisna deyil (2, 283-285).

**2-cisi**, protokolların ratifikasiyası və sərhədlərin açılması üzündən Türkiyənin qoşulduğu bir sıra strateji önəmli layihələr də təhlükə altında qalar.

**3-cüsü**, Türkiyə-Ermənistan protokollarının həyata keçirilməsinin onlar arasındakı münasibətləri normallaşdırmaqla yanaşı həm də sonuncunun regional iqtisadi layihələrdə iştirakına yol açdığını güman etmək sadəlövhlük olardı. Başqa sözlə, Ermənistanın bu yolla razı salınması və nəticədə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini tapması çağdaş regional reallıqlar xaricindədir. Özünün təcavüzkar siyasəti və Rusiyanın aləti olması üzündən "BTC qatarı"ndan qalan Ermənistanın BTQ dəmiryolu, İran-Türkiyə qaz kəməri, hətta "Nabucco" layihələrində iştirakının gerçəkləşməsi hazırkı şəraitdə inandırıcı görünmür.

Ancaq protokollardan birində Türkiyə-Ermənistan enerji əməkdaşlığı barədə müddəa da özünə yer almışdı. Burada söhbət Azərbaycanın iştirakı nəzərdə tutulmayan əməkdaşlıqdan gedə bilər. Belə ki, müxtəlif səviyyələrdə müəyyən müzakirələrin aparıldığı haqda məlumatlar da yayılmışdı. Həmin müzakirələrdən birində Türkiyə ilə Aİ-nin "Nabucco"nun İran və Ermənistandan keçməsini nəzərdən keçirdikləri bildirilirdi. Həmçinin Rusiya qazının Türkiyəyə və eyni həcmdə İran qazının Ermənistana nəqli, sonuncunun da İİR-ə elektrik enerjisi verməsinə dair məsləhətləşmələrin getdiyi qeyd edilirdi. Digər bir məlumatsa Ermənistandan keçməklə İran-Türkiyə qaz kəmərinin çəkilməsini açıqlayırdı. Ermənistanın Türkiyəyə elektrik enerjisi satması üçün sonuncunun "Unit" şirkəti ilə danışıqlara girişdiyi də məlumdur.

Regional enerji mərkəzinə çevrilməyi hədəfə alan Türkiyə Rusiyanın "Cənub axını" və "Mavi axın-2" layihələrinə qoşulmaq təklifinə müsbət yanaşır. Habelə Rusiya öz neftini Türkiyə vasitəsilə Ceyhan limanına nəql etməkdə maraqlıdır. Eyni vaxtda İran da öz qazını Türkiyədən ötürülməklə Avropa bazarına çıxarmaq istəyir. Yuxarıda sadalananların hamısını üst-üstə gəldikdə enerji ehtiyatlarına malik olmayan Ermənistanın belə çoxşaxəli əməkdaşlıqdan xeyli qazana bilməsi mümkündür. Məlum səbəblərə görə, mövcud layihələrdə iştirak edə bilməyən Ermənistan gələcəkdə "Azərbaycansız enerji əməkdaşlığı"na cəlb oluna bilər. Bunun da sayəsində o, Rusiya-İran-Türkiyə arasında çoxşaxəli enerji dəhlizinə çevrilər.

Ermənistanın regional iqtisadi layihələrdə iştirakına aid təkliflərdən biri də Avropa İttifaqı XİN-lərinin toplantısında (İsveçrə, 6.IX.2009) irəli sürülmüşdür. Burada söhbət Bakı-Dağlıq Qarabağ-Laçın-Ermənistan-Naxçıvan-Türkiyə (Ədirnə) quru yolunun çəkilməsindən gedir. Ə.Davudoğlunun "Sülh yolu" adlandırdığı təklif əslində yeni bir ideya deyil. O, vaxtilə çəkilməsinə başlanılan yolun tikintisinin davamına səy hesab edilir. Hələ SSRİ dönəmində olan iki quru yolu (Bakı-Qazax-İcevan-Naxçıvan və Bakı-Yevlax-Ağdam-Dağlıq Qarabağ-Laçın-Ermənistan-Naxçıvan) ölkəmiz üçün çox əlverişsiz idi. Xüsusilə, ikinci yol qışda bağlanırdı və həmçinin onun 200 km-i Ermənistandan keçirdi. Sovet hökumətinin 1981-ci ildə qəbul edilən qərarına əsasən digər marşrutun, yəni Bakı-Zəngilan-Mehri-Naxçıvan yolunun çəkil-

məsinə başlanılmışdı. 50 km-ə yaxın hissəsi Ermənistandan keçən həmin yolun çəkilişi onun sərhədinə çatdıqda ermənilərin etirazı üzündən dayandirilmışdı.

Ermənilər Zəngilan-Mehri-Naxçıvan quru yoluna Azərbaycan-Türkiyə strateji dəhlizi kimi yanaşırdılar. SSRİ hökumətinin 1985-ci il qərarına əsasən çəkilişi davam etdirildi. Hətta Naxçıvanla İqdırı birləşdirən körpü salındı. Araz çayı üzərindən dəmiryol körpüsü də tikilməkdəydi. Ancaq yolun inşası Ermənistanın Azərbaycana təcavüzü üzündən yarımçıq qaldı. Türkiyənin mərhum Baş naziri B.Ecevit bu layihəni “Türk yolu” adlandırmışdı. Azərbaycan mütəxəssisləri mətbuat vasitəsilə Ə.Davudoğluna böyük hissəsi ermənilərin nəzarəti altında ola biləcək yeni (“Sülh yolu”nun) tikilməsindənsə, Azərbaycan-Türkiyə strateji dəhlizi ilə çəkilən köhnə (“Türk yolu”nun) bərpasına çalışılmasını məsləhət bilirdilər.

**4-cüsü**, Türkiyənin protokollarla Avropa İttifaqına üzvlük yolunda daha bir maneəni aradan qaldıra biləcəyinə dair gözlənilənlər də ümidverici deyildir. İttifaqın Türkiyə ilə bağlı daima sistemli və məqsədli olaraq əsas tutduğu “ikili standart”ın aradan qaldırılacağını söyləməyə yetərli əsaslar yoxdur.

**5-cisi**, protokolların “təhdid və gücdən istifadədən çəkinmə” kimi məqamları ilə Türkiyə Ermənistanla Azərbaycan arasında mümkün ola biləcək hərbi və s. qarşıdurmada avtomatik şəkildə kənarda qalır. Həm də nəzərə alınmalıdır ki, artıq Rusiya-Ermənistan-İran blokunun formalaşdığı bir şəraitdə Türkiyə ilə Azərbaycan arasında yetərli hərbi müttəfiqlik (müqavilə və s.) belə yoxdur. Bu kontekstdə “Sürix sənədləri”nin Azərbaycanın Naxçıvan bölgəsini təhlükəyə salmasına dair də xəbərdarlıqlar edilməkdədir.

Belə bir məsələni isə ilk dəfə Türkiyənin ABŞ-dakı keçmiş böyük elçisi Ş.Ələkdağ açıqlamışdır. Onun fikrincə, protokolların ratifikasiyası ilə Qars müqaviləsi (5) qüvvədən düşə bilər. Bu halda “Naxçıvanın statusunun dəyişdirilməsi” ehtimalı və imkanı yaranmış olur. “Həyəcan təbili” çaldığını bildirən Ş.Ələkdağ Türkiyənin də qarantı olduğu “Naxçıvanın statusu və təhlükəsizliyi məsələsi”nin protokolda açıq qaldığı qənaətindədir. V.Quluzadəyə görə, “dövlət deyil, Rusiyanın bir quberniyası” və böyük güclərin “ərköyün övladı” olan Ermənistan ilk əlverişli imkanı qazanan kimi həmin bölgəmizi işğal edər: “Sərhədlər açılsa da, heç bir erməni türkə olan düşmənçilik və nifrət hissini itirməyəcəkdir”.

Bəzi ekspertlərsə, məlum protokolların təsdiqlənməsinin Qars müqaviləsini qüvvədən düşürəcəyini və bununla da Ermənistanın yeni iddiaları üçün əsas verəcəyini güman etmirlər. Bu zaman ərazi müqavilələrinin hüquqi-siyasi statusunu itirməsinin torpağın üçüncü dövlət üçün mənsubiyyətinə əsas yaratmadığı bildirilir. Habelə vaxtılə Azərbaycanın İrəvanı və Zəngəzuru Ermənistana verməsinə dair mövcud olan sənədlər xatırladılır.

Ş.Ələkdağ da daxil olmaqla bir çox diplomatlar və analitiklər protokolların təsdiqlənməsinin (Qars müqaviləsinin qüvvədən düşməsinin) Ermənistanla sərhədlər məsələsini gündəmə gətirməklə Türkiyənin özü üçün problemlər

yaradacağını vurğulayırdılar. Çünki Qars müqaviləsində Türkiyə-Ermənistan sərhədləri də təsbit olunubdur.

Qars müqaviləsi ilə edilən belə bir təsbitləməyə və Naxçıvanın statusunun müəyyənləşdirilməsinə baxmayaraq Ermənistan həm Türkiyəyə, həm də adıçəkilən bölgəmizə qarşı ərazi iddialarını davam etdirməkdədir. (Burada 1921-ci ildə bağlanan Moskva və Qars müqavilələrinin incələnməsi zamanı aşkarladığımız bu vacib məqamı da diqqət önünə çəkmək lazım gəlir. Belə ki, Moskva müqaviləsinin 3-cü maddəsində (4) yazılan "protektoratı (Naxçıvan vilayətini – **İ.M.**) Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi" şərti Qars anlaşmasının məlum 5-ci maddəsində öz əksini tapmamışdır).

Ekspertlərin fikrincə, protokolların təsdiqlənəcəyi təqdirdə Türkiyə dövləti Ermənistan Konstitusiyasında ona qarşı irəli sürülən ərazi iddiaları barədə də məsələ qaldırmalıdır. Çünki protokollarda tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıdığı da qeyd edilibdir. Əslində Türkiyə Ermənistanın müstəqilliyini tanımaqla onun ərazi bütövlüyü ilə də hesablaşmışdı. Əksinə Ermənistanın müstəqillik Aktında və Konstitusiyasında isə Türkiyə ilə Azərbaycanın ərazi bütövlükləri tanınmırdı. "Sürix sənədləri"nin imzalanması Ermənistan üçün habelə Türkiyəyə qarşı irəli sürdüyü ərazi iddialarından (1, 379) geri çəkilməyə qol qoyulması mənasındadır. Protokolların təsdiqlənəcəyi halda dövlətlərarası hüquqi-siyasi halın Konstitusiyada mütləq təsbit olunması zərurəti gündəmə gəlir.

**6-cısı**, "Sürix protokolları" Qərbin layihəsi və "Nobel mükafatı tələsi" olaraq da səciyyələndirilir. "Ermənistanın avropalı dostları" qurumunun rəhbəri M.Kembekin açıqlamasına görə, Türkiyə ilə Ermənistan arasında anlaşma əldə ediləcəyi və sərhədlərin açılacağı halda Ərdoğanla Sərkisyana Nobel Sülh mükafatı veriləcəkdi (Bunu növbəti "erməni təxribatı" sayanlar, mükafatın B.Obamaya verilməsi ilə bağlı yaranan rəngarəng mövqelər axarında mümkün hesab edənlər də yox deyildi).

Ekspertlərin çoxu "Türkiyə-Ermənistan münasibətlərinin indiki durumunda Nobel mükafatına əsas verəcək bir məqam yoxdur" mövqeyindədirlər. Həmçinin ortalıqda Qərbin Sərkisyanla Ərdoğanın kompromislərə getmələri üçün Nobel Sülh mükafatı ilə şirnikləndirilmələri planının olması vurğulanır. Bunlarla bağlı Azərbaycan, Türkiyə və Rusiya mətbuatında bir sıra obrazlı ifadələrlə səsləndirilən mülahizə və müddəalara rast gəlinir: "Türkiyəyə Ənvər Sadat lazımdırdmı?", "Ərdoğan ikinci Sadat, ikinci Pamuk olmaq istəyirsə", "Bəlkə Putinə də Nobel mükafatı vəd edilsin?" və s.

Protokollar Ermənistanda da müxtəlif rəylər yaratdı. Orada Türkiyə ilə "Yol xəritəsi"ni, yəni onunla yaxınlaşma və anlaşmanı bəyənənlərə rast gəlinir. Bütövlükdə isə, ölkədə "Sərkisyan Qarabağı satıb" ab-havası hakimdir. Protokollara qarşı əsas narazılıq və etirazların Ermənistan ordusu və "DQR"-in siyasi dairələrinin bir hissəsi tərəfindən edildiyi bildirilir. Separatçı rejimin rəhbərliyi türk-erməni barışıq prosesini dəstəkləsə də, Ermənistan-Azərbaycan münaqişəsinin həllində Dağlıq Qarabağın tərəf kimi iştirakını tələb edir.

Türkiyə-Ermənistan yaxınlaşması S.Sərkisyanın istefası (hətta onun öldürülməsi) çağırışlarını gücləndirmişdi. (Bunun növbəti "erməni gedişi" olması da deyilir). Beynəlxalq dairələrdə (elə Azərbaycanda da) bəzi siyasətçilər və ekspertlər Ermənistanda Türkiyə və Azərbaycana qarşı daha barışmaz qüvvələrin hakimiyyətə gələ bilməsi ehtimalından qayğılanırlar. S.Sərkisyan isə diasporadan dəstək almaq səylərini artırmışdır. Bu sırada onun Paris və Moskvaya səfərləri (X.2009) diqqətçəkici olmuşdur. Paris görüşündə 75 faizi diaspordan ibarət olan ermənilərin Avropanın 27 ölkəsində fəaliyyət göstərən 100-dən çox təşkilatının təmsil olunduğu bəllidir. Amma İtaliyanın "La Stampa" qəzetinin məlumatına görə, protokollarla bağlı "diaspora qarşı çıxmağa cəsarət edən ilk dövlət başçısı"nın bu, ümumerməni turnesi uğursuz olmuşdur.

Erməni diaspora və lobbisi "tənha adam"ın (S.Sərkisyanın) Türkiyə ilə anlaşmaq xəttinə "xeyir-dua" vermədi. Moskva səfərində isə erməni diasporundan pul toplanmasının mühüm yer tutduğu məlumdur. Bu işdə də əsasən 1992-ci ildə yaradılan və indiyədək "DQR"-ə 200 mln. dollardan çox yardım edən "Hayastan" fondunun imkanlarından yararlanmağa çalışılmışdı. Ancaq məlum protokolların bu missiyaya da müəyyən kölgə saldığı bildirilir.

Diasporun təzyiqləri Sərkisyan-Nalbəndyan cütlüyünün protokollarla bağlı mövqeyində, yəni Türkiyə ilə anlaşma məsələsində bəzi gedişlərini şərtləndirdi (6, 52). Belə ki, Dağlıq Qarabağın danışıqlar prosesinə qoşulması şərti israrla irəli sürülübdür: "münaqişənin dinc yolla həllinin ən real yolunu Dağlıq Qarabağın danışıqlarda iştirakı təşkil edir". Erməni baş diplomatı rəsmi İrəvanın Qarabağ məsələsində güzəştlərə getməyəcəyini vurğulayaraq bildirib ki, "Dağlıq Qarabağ münaqişəsi və Ermənistan-Türkiyə münasibətləri iki müxtəlif prosesdir. Bu, yalnız Ermənistanın deyil, habelə beynəlxalq ictimaiyyətin mövqeyidir.

Türkiyə-Ermənistan münasibətlərinin normallaşması təşəbbüsünü Ankaranın deyil, İrəvanın irəli sürdüyünü açıqlayan E.Nalbəndyanın fikrincə, "protokollar çoxtərəfli yox, ikitərəflidir və onların ratifikasiyasını başqa dövlətə bağlamaq beynəlxalq təcrübəyə ziddir" (8). Ermənistan rəhbərliyi bir müddət Türkiyə ilə danışıqlar mərhələsinin artıq başa çatdığını və qarşıda isə protokolların tezliklə təsdiqlənməsi əsasında diplomatik münasibətlərin qurulması, sərhədlərin açılması məsələsinin dayandığını bəyan etdi. Hətta İrəvanın Ankaraya 2010-cu ilin martınadək vaxt verdiyi və əks halda münasibətlərin yenidən korlanacağına dair xəbərdarlıq etdiyi barədə rəsmi məlumatları da yayıldı.

Belə bir durumda rəsmi Ankara Ermənistanı təmkinli olmağa çağırdı. Ə.Davudoğlunun fikrincə, "protokolların imzalanması və təsdiqlənməsi bir prosesdir və bu cür hallarda hər kəs konstruktiv ssenarilərlə hərəkət etməlidir". Nazir "Konstruktiv ssenari"ni isə protokolların qüvvəyə minməsi və bütün Qafqazda genişmiqyaslı sağlam normallaşma prosesinin başladılması, bunların da Qarabağ münaqişəsinin həlli vasitəsilə mümkün ola biləcəyi kimi açıqlamışdı (7).

Ermənistan Konstitusiya Məhkəməsinin protokollara müəyyən düzəliş və şərtlərlə “xeyir-dua verməsi” vəziyyəti yenidən kəskinləşdirdi. Rəsmi İrəvanın Türkiyənin şərq vilayətlərini yenidən “Qərbi Ermənistan kimi qələmə verməsi” və “erməni soyqırımı” iddialarından vaz keçməməsi qarşılıqlı anlaşmanın perspektivinə ümidləri xeyli azaltdı. Hətta qarşılıqlı münasibətləri yenidən kəskinləşdirən hallar ortaya çıxdı.

AKP iqtidarı Ermənistan Konstitusiya Məhkəməsinin qərarının ardınca protokolları Türkiyə Böyük Millət Məclisinə yollasa da, hökumətin “erməni açılımı” xətti iflas təhlükəsi ilə qarşılaşdı. Parlamentdə “protokol mübahisələri”ni yaşayan Türkiyə həmçinin müxtəlif yönlərdən təzyiqlərlə üzləşdi. Prosesə Ermənistana öncə “Edik, idi podpişi” və sonra da “Edik, ni podpişi” göstərişini verən Rusiyanın ciddi təsiri danılmazdır. E.Nalbəndyanın Ermənistanın Türkiyə ilə münasibətlərdə və Azərbaycanla münaqişənin həllində güzəştlərə getməyəcəyinə dair bəyanatı (22.I.2010) buna əyani sübutdur. Kremldə eyni vaxtda hər iki türk dövlətinə qarşı tələ qurulduğunu iddia edən yanaşmalar meydana gəldi və çoxaldı.

Ə.Davudoğlunun amerikalı həmkarı H.Klintonla apardığı telefon müzakirəsi də (22.I.2010) əməli nəticələr vermədi. Əksinə ABŞ-ın, dolayısı ilə də olsa, Ermənistan Konstitusiya Məhkəməsinin qərarını dəstəklədiyi aşkarlandı. Həmin telefon danışığında “Sürix protokolları”nın ratifikasiyasının sürətləndirilməsinin “bütün şahidlər”in (ABŞ, Rusiya, Fransa və İsveçrə) iştirakı ilə təmin olunması qərarına gəlindi. Türkiyə XİN-i öz təmsilçisini Ermənistanla gizli danışıqların memarı hesab olunan İsveçrə diplomatı M.Ambulla müzakirə üçün Cenevrəyə göndərdi. Digər tərəfdən, erməni lobbisi B.Obamaya təzyiqləri artırdı və ABŞ Konqresinin “soyqırım qətnaməsi”ni səsverməyə çıxarmağa hazırlaşdığı barədə də məlumatlar yayıldı.

Bütövlükdə isə, Ermənistanın sənədlərdən geri çəkilmək səyləri “protokol böhranı”nı dərinləşdirdi. Bunu Ermənistanda sənədlərdəki imzanın ləğvi üçün prezidentə səlahiyyət verən qanun layihəsinin hazırlanması da təsdiqləyir. Əfqanıstana dair Beynəlxalq konfransdan (London, 28.I.2010) bir gün əvvəl orada H.Klintonla 15 dəqiqəlik müzakirələr aparan Ə.Davudoğlunun “protokol böhranı”ndan sonra ilk dəfə olaraq görüşdüyü E.Nalbəndyanla danışıqları kəskin mübahisələr şəraitində keçibdir.

Ən son dönəmin bəzi açıqlamalarına görə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı 2011-ci ilin dekabrında öncə Tiflisdə, sonra da Avropada gizli danışıqlar aparılmışdır. Ermənistan XİN-in rəsmi nümayəndəsi T.Balayan bunu təkzib etmişdir. Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasında və bununla əlaqədar “Sürix protokolları” nın həyata keçirilməsində maraqlı olan ABŞ-ın rəsmisi F.Qordonsa müvafiq səylərin davam etdirildiyini bildirmişdir.

## ƏDƏBİYYAT


1. Uluslararası IV. Türk Dış Politikası Sempozyum Tebliğleri, (Ed.) Dinçer, Ankara, USAK Yayınları, 2010, 416 s.
2. Lütem Ömer, Türkiyenin Ermenistan, Ermenistanın Türkiye Politikası / Ermeni araşdırmaları I. Türkiye Kongresi Bildirileri, II.Cilt, Ankara: ASAM Yayınları, 2003, 436 s.
3. Qarabağ gündəliyi. 5 saylı bülleten. Bakı: «Namiq Həbibov» mətbəəsi, 2011, 120s.
4. Azərbaycan Respublikası MDTA: f.28, siy.1, iş 58, v. 143 arx, 146; iş 67, v. 1 arx.
5. Azərbaycan Respublikası MDTA: f. 28, siy.1, iş 69, v. 9-19; iş 123, v. 122-125.
6. Абасов А. Проблема разрешения конфликтов Южного Кавказа: 2008-2011гг. / Qarabağ dünən, bu gün və sabah 9-cu elmi-əməli konfransının materialları toplusu. Bakı, 2010, s.49-53.
7. "Xalq qəzeti" , 2009, 13 oktyabr
8. www.qafqazinfo.az , 03.01.11


## «ЦЮРИХСКИЕ ПРОТОКОЛЫ»: ВЗГЛЯДЫ И ПОЗИЦИИ


**И.М.МУСА**


### РЕЗЮМЕ


В статье рассматриваются вопросы, связанные с протоколами подписанные в Цюрихе между Турцией и Арменией от 10 октября 2009 года. Особое внимание уделено анализу различных взглядов по поводу подписания данного документа. В статье также исследуются причины не утверждения протоколов сторонами. В статье исследованы острые обсуждения вокруг протоколов. В работе отражена позиция Азербайджанской дипломатии в отношении данных документов.



**Ключевые слова**: Цюрих, протоколы, «двойной стандарт», «Нагорно Карабахская проблема», территориальные притязания


## "ZURICH PROTOCOLS": VIEWS AND POSITIONS.


**I.M.MUSA**


### SUMMARY


The presented article studies the problems connected with the protocols signed between Turkey and Armenia in Zurich, on October 10, 2009. The author focuses on the analysis of various views on the conclusion of the document. The reasons for not confirming the protocols by the sides are also investigated in the given article. The serious discussions around the protocols are analysed as well. The position of Azerbaijan diplomacy connected with the documents is reflected in the presented article.



**Key words**: Zurich, protocols, "double standards", "the problem of Nagorny Garabagh", territorial claims.